# Ali Baş Komandan Silahlı Qüvvələrimizin bütün şəxsi heyətini təbrik etdi

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev birlik komandiri, general-leytenant Hikmət Mirzəyevə zəng edib.

Ali Baş Komandan Şuşa şəhərinin işğalçılardan azad edilməsi münasibətilə Hikmət Mirzəyevi təbrik edib. Dövlət başçısı Şuşanın azad edilməsində qəhrəmancasına və rəşadətlə iştirak etmiş hərbi qulluqçulara, Silahlı Qüvvələrimizin bütün şəxsi heyətinə təbriklərini çatdırıb.

General-leytenant Hikmət Mirzəyev şəxsi heyət adından Ali Baş Komandana dərin təşəkkürünü ifadə edib. O, Ali Baş Komandanın əmrlərini yerinə yetirmək və etimadını doğrultmaq üçün şəxsi heyətin hər zaman hazır olduğunu məruzə edib.

***Prezidentin Mətbuat Xidməti***

Azərbaycan.- 2020.-11 noyabr.- S.6.